# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 133** **Bakı şəhəri, 4 aprel 2022-ci il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Biometrik informasiya xidmətlərinin sahələr üzrə fəaliyyətinin təşkili və tənzimlənməsi Qaydaları"nın təsdiq edilməsi barədə" 2009-cu il 1 aprel tarixli 50 nömrəli, "Birgə bazalı aerodromların dövlət qeydiyyatına alınması Qaydası"nın təsdiq edilməsi haqqında" 2009-cu il 24 aprel tarixli 69 nömrəli, "Avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarını yerinə yetirən daşıyıcılar tərəfindən mülkiyyət, icarə və ya istifadəsində olan avtonəqliyyat vasitələrinin texniki vəziyyətinin reysqabağı yoxlanılması, sürücülərin reysqabağı tibbi müayinəsinin keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" 2009-cu il 24 aprel tarixli 71 nömrəli, "Azərbaycan Respublikasının ümumi istifadədə olan avtomobil yolları ilə iriqabaritli və ağırçəkili nəqliyyat vasitələrinin hərəkət etməsi və onların hərəkətinə xüsusi icazənin verilməsi Qaydası"nın, "Azərbaycan Respublikasının ümumi istifadədə olan avtomobil yolları ilə iriqabaritli və ağırçəkili avtonəqliyyat vasitələrinin hərəkət etməsinə görə ödənişlərin dərəcələri"nin və "Azərbaycan Respublikasının ümumi istifadədə olan avtomobil yolları ilə hərəkət edən avtonəqliyyat vasitələrinin icazə verilən qabarit və çəki parametrləri"nin təsdiq edilməsi haqqında" 2009-cu il 7 iyul tarixli 104 nömrəli, "Aviasiya qəzalarını və insidentlərini araşdıran komissiyanın fəaliyyət göstərməsi Qaydaları"nın təsdiq edilməsi barədə" 2009-cu il 5 avqust tarixli 118 nömrəli, "Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması Qaydaları"nın təsdiq edilməsi haqqında" 2009-cu il 17 sentyabr tarixli 141 nömrəli və "Avtomobil nəqliyyatı ilə yüklərin daşınması Qaydaları"nın təsdiq edilməsi haqqında" 2009-cu il 17 sentyabr tarixli 142 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə***

"Azərbaycan Respublikasında rəqəmsallaşma, innovasiya, yüksək texnologiyalar və rabitə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 11 oktyabr tarixli 1464 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 1 aprel tarixli 50 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 4, maddə 268; 2014, № 6, maddə 747; 2017, № 9, maddə 1750; 2019, № 1, maddə 160) ilə təsdiq edilmiş "Biometrik informasiya xidmətlərinin sahələr üzrə fəaliyyətinin təşkili və tənzimlənməsi Qaydaları"nın 11.1-ci bəndində "Nəqliyyat, Rabitə və Yüksək Texnolo-giyalar" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat" sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 24 aprel tarixli 69 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 4, maddə 286; 2019, № 1, maddə 161) ilə təsdiq edilmiş "Birgə bazalı aerodromların dövlət qeydiyyatına alınması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.1.7-ci yarımbənddə "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat" sözləri ilə əvəz edilsin;

2.2. 3.1-ci bənddə "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi (bundan sonra – NRYTN)" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi (bundan sonra – RİNN)" sözləri ilə əvəz edilsin;

2.3. 3.2-ci, 3.4-cü, 5.1-ci və 5.2-ci bəndlərdə "NRYTN" akronimi "RİNN" akronimi ilə əvəz edilsin;

2.4. Qaydaya 1 nömrəli əlavə - "Azərbaycan Respublikasının birgə bazalı aerodromlarının dövlət reyestrinin forması"nın "Qeydlər"inin 1-ci və 2-ci hissələrində "NRYTN-in" sözü "RİNN-in" sözü ilə əvəz edilsin;

2.5. Qaydaya 3 nömrəli əlavə - "Aerodromun Azərbaycan Respublikasının birgə bazalı aerodromlarının dövlət reyestrində qeydiyyatı haqqında Sənədin forması"nın "Qeyd"ində "NRYTN-in" sözü "RİNN-in" sözü ilə əvəz edilsin;

2.6. Qaydaya 6 nömrəli əlavə - "Aerodromun birgə bazalı aerodromların dövlət reyestrindən çıxarılması haqqında sənədin forması"nın "Qeyd"ində "NRYTN-in" akronimi "RİNN-in" akronimi ilə əvəz edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 24 aprel tarixli 71 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 4, maddə 288; 2017, № 4, maddə 632, № 9, maddə 1751; 2020, № 9, maddə 1239) ilə təsdiq edilmiş "Avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarını yerinə yetirən daşıyıcılar tərəfindən mülkiyyət, icarə və ya istifadəsində olan avtonəqliyyat vasitələrinin texniki vəziyyətinin reysqabağı yoxlanılması, sürücülərin reysqabağı tibbi müayinəsinin keçirilməsi Qaydası"nın 2.3-cü bəndində "Nəqliyyat" sözü, 2.7-ci və 2.8-ci bəndlərində "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat" sözləri ilə əvəz edilsin.

**4.** "Azərbaycan Respublikasının ümumi istifadədə olan avtomobil yolları ilə iriqabaritli və ağırçəkili nəqliyyat vasitələrinin hərəkət etməsi və onların hərəkətinə xüsusi icazənin verilməsi Qaydası"nın, "Azərbaycan Respublikasının ümumi istifadədə olan avtomobil yolları ilə iriqabaritli və ağırçəkili avtonəqliyyat vasitələrinin hərəkət etməsinə görə ödənişlərin dərəcələri"nin və "Azərbaycan Respublikasının ümumi istifadədə olan avtomobil yolları ilə hərəkət edən avtonəqliyyat vasitələrinin icazə verilən qabarit və çəki parametrləri"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 7 iyul tarixli 104 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 7, maddə 601; 2014, № 4, maddə 454; 2016, № 3, maddə 591; 2017, № 1, maddə 129; 2018, № 1, maddə 139; 2019, № 1, maddə 161; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 28 dekabr tarixli 415 nömrəli Qərarı) aşağıdakı dəyişikliklər edilsin:

4.1. həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikasının ümumi istifadədə olan avtomobil yolları ilə iriqabaritli və ağırçəkili nəqliyyat vasitələrinin hərəkət etməsi və onların hərəkətinə xüsusi icazənin verilməsi Qaydası"nın 1.9-cu bəndinin ikinci cümləsində (hər iki halda), 2.1-ci, 3.1-ci, 3.3-cü, 3.4-cü, 3.9-cu, 3.13-cü bəndlərində, 3.18-ci, 3.20-ci bəndlərinin birinci cümlələrində və 1, 2, 3, 4 nömrəli əlavələrində "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat" sözləri ilə əvəz edilsin;

4.2. həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikasının ümumi istifadədə olan avtomobil yolları ilə hərəkət edən avtonəqliyyat vasitələrinin icazə verilən qabarit və çəki parametrləri"nin 1.3-cü bəndində "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat" sözləri ilə əvəz edilsin.

**5.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 5 avqust tarixli 118 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 8, maddə 671; 2016, № 9, maddə 1585; 2019, № 1, maddə 161) ilə təsdiq edilmiş "Aviasiya qəzalarını və insidentlərini araşdıran komissiyanın fəaliyyət göstərməsi Qaydaları"nın 1.1-ci bəndində "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat" sözləri ilə əvəz edilsin.

**6.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 17 sentyabr tarixli 141 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 9, maddə 745; 2010, № 11, maddə 1041, № 12, maddə 1125; 2011, № 4, maddə 372; 2013, № 8, maddə 1025, № 12, maddə 1629; 2014, № 7, maddə 945, № 8, maddə 1014; 2016, № 2 (II kitab), maddə 354, № 3, maddə 592, № 4, maddələr 779, 804, 817, № 5, maddə 964; 2017, № 4, maddələr 633, 650, № 5, maddə 980, № 8, maddə 1609; 2018, № 4, maddə 806, № 5, maddə 1107, № 7 (II kitab), maddə 1625, № 9, maddə 1920, № 10, maddə 2175, № 11, maddələr 2443, 2444; 2019, № 1, maddə 161, № 3, maddələr 515, 569, № 12, maddə 2094; 2020, № 9, maddə 1239, № 10, maddələr 1281, 1291; 2021, № 4, maddə 411; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 29 dekabr tarixli 516 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması Qaydaları"nın 1.2.7-1-ci və 1.2.11-ci yarımbəndlərində, 2.2-ci bəndində, 3.3-cü bəndinin üçüncü və dördüncü cümlələrində, 3.3-1-ci bəndinin üçüncü cümləsində, 4.3-cü bəndinin birinci və ikinci cümlələrində, 4.10-cu bəndində, 6.4-cü bəndinin ikinci cümləsində, 7.4-cü bəndinin ikinci cümləsində, 7.5-ci bəndində, 7.6-cı bəndinin birinci və ikinci cümlələrində, 7.8-ci, 7.9-cu, 7.10-cu və 13.2-ci bəndlərində, 13.2.5-ci yarımbəndində, 16.1-ci bəndində "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat" sözləri ilə əvəz edilsin.

**7.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 17 sentyabr tarixli 142 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 9, maddə 746; 2014, № 8, maddə 1013; 2017, № 5, maddə 981, № 9, maddə 1752; 2018, № 9, maddə 1921, № 11, maddə 2448, № 12 (II kitab), maddə 2722; 2019, № 1, maddə 161, № 12, maddə 2094; 2020, № 9, maddə 1239; 2021, № 4, maddə 411, № 5, maddə 523) ilə təsdiq edilmiş "Avtomobil nəqliyyatı ilə yüklərin daşınması Qaydaları"nın 1.7.1-ci, 2.1.3-1-ci yarımbəndlərində, 35.5-ci bəndinin üçüncü cümləsində və 50-ci hissəsində "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının***
***Baş naziri***